# *Rəssam Rövşən NUR:* "Rəsmlərim unudulmaz qan yaddaşımız haqqındadır"

**Xocalı soyqırımı günü ilə əlaqədar rəsmlər çəkdiyim günləri xatırlayıram. Bu, sakit deyil, xatirələrin ağırlığı ilə dolu qəlbimdə yaranan özəl bir sükut idi. Susaraq demək istədiyim çox şey vardı. Ağrı, kədər, şəfqət, çarəsizlik... Eyni zamanda məsuliyyət hiss edirdim. Bu məsuliyyət nəyisə təhrif etməmək, bayağılaşdırmamaq, "gözəl" deyil, dürüst olmaqla bağlı idi.**




Rəssam Rövşən Nur AZƏRTAC-a müsahibəsində Azərbaycanın Xocalı şəhərində baş vermiş faciəli hadisələrə həsr etdiyi rəsm əsərləri üzərində işini belə təsvir edib. Onun tabloları müxtəlif Avropa ölkələrində dəfələrlə sərgilənib və beynəlxalq auditoriyanın diqqətini cəlb edib.

"Hər bir əsər çətinliklə yaranırdı. Rəsm çəkməyi dayandırdığım anlar olurdu, amma təkrar-təkrar işləməyə davam edirdim. Çünki bunu niyə etdiyimi bilirdim. Bu rəsmlər təkcə faciədən bəhs etmir, onlar itirilə bilməyən qan yaddaşımız və unudulmayan insan həyatları haqqındadır.

Zaman keçdikcə bu əsərlər emalatxanadan və ölkədən kənara çıxdı. Onlar Avropa ölkələrində sərgilənməyə başladı. Hər dəfə qəribə bir qürur və sükunətli ağrı qarışıq hisslər keçirirdim. Bu, həqiqətin insanların qəlbinə yol tapması ilə əlaqədar qürur və həmin həqiqətin səbəbinin belə dəhşətli bir faciə olması ilə bağlı ağrı idi. Bu mövzuda sonuncu sərgi ötən il Parisdə keçirildi və müxtəlif mədəniyyətlərdən olan fərqli dillərə mənsub insanların rəsmlərimin qarşısında necə dayanıb susduğunu görmək mənim üçün xüsusilə təsirli oldu. Bəzən bu sükut istənilən sözdən daha çox şeyi ifadə edir", - deyə müsahibimiz qeyd edib.

Rəssam Estoniyada yaşayır və işləyir. Onun sözlərinə görə, Xocalı faciəsinə həsr olunmuş sərgi hər il Tallində də keçirilir.

Azərbaycan. - 2026.- 27 fevral (№ 38).- S.15.